Ümumi məlumat	**Fənn (kodu, adı, kreditlər sayı)**	**CMS 433: Multimedia dizayn (3 kredit)**
	Kafedra	Kompüter elmləri
	Program	Bakalavr
	Tədris semestri	Yaz, 2023
	Müəllim	Zeynəb Muradxanlı
	E-mail:	zeynab.muradkhanli@khazar.org, muradkhanli@gmail.com
	Telefon:	(+99412)4211093 (daxili 221)
	Otaq/Dərs saatları	
Prerekvizitlər	CMS 240: Proqramlaşdırma dilləri, CMS121 Təhsildə Kompüter Tətbiqləri	
Tədris dili	Azərbaycan	
Fənnin növü Məcburi/Seçmə	Məcburi	
Dərsliklər və Əlavə Ədəbiyyat	1. Fundamentals of Multimedia, Second Edition, Ze-Nian Li, Mark S.Drew, Jiangchuan Liu, Springer, 3rd edition, 2021. 2. Elements of Multimedia, Sreeparna Banerjee, 2019. 3. Multimedia: Making It Work, Ninth Edition, Tay Vaughan, McGraw Hill, 2014. 4. Multimedia Foundations, Vic Costello with Susan A. Youngblood and Norman E. Youngblood, Elsevier, 2012.	
Kursun təsviri	Bu kurs multimedia sistemlərinə girişdir və dizayn, tipoqrafiya, video, audio, animasiya və veb daxil olmaqla multimediyanın bütün komponentlərini əhatə edir. Tələbələr yaradıcı dizayn düşüncəsini multimedia dizaynında müvafiq texniki bacarıqlar və animasiya tətbiqetmələri ilə birləşdirməyi, kompleks multimedia layihələri yaratmağı və idarə etməyi öyrənir.	
Kursun məqsədi	Kursun məqsədləri: • Multimediada mətn və redaktə şriftlərindən istifadə etməyi öyrənmək • Multimediada şəkillərdən istifadə etməyi və şəkilləri sıxmağı öyrənmək • Multimediada audio, video və animasiya effektlərinin tətbiqini örənmək • Multimedia layihələrinin yaradılması və tətbiqi	
Tədrisin nəticələri	**Kursun sonunda tələbələr aşağıdakıları bacarmalıdır:** • Multimediada tipoqrafiyadan (mətn və redaktə şriftləri) istifadə etməyi • Multimediada şəkillərdən istifadə etməyi və şəkilləri sıxmağı • Rəng sistemləri və qrafik formatlarını • Multimedia layihələrinə qrafika, səslər, videolar, animasiyalar əlavə etməyi və onları redaktə etməyi • Animasiyaların prinsiplərini və texnikasını • Multimediada audio, video və animasiya effektlərinin tətbiqini • Multimedia layihələrini düzgün şəkildə təqdim etməyi	
Tədris metodları	**Mühazirə**	x
	Praktiki tapşırıq	x
	Praktiki məsələnin təhlili	x
	Laboratoriya işi	x
	Digər	

Qiymətləndirmə	**Metod**	**Tarix/Son müddət**	**Faiz (%)**
	Aralıq imtahanı		**30**
	Davamiyyət		
	Praktiki tapşırıq	Semestr ərzində	**20**
	Quiz	Semestr ərzində	**15**
	Layihə		
	Final İmtahanı		**35**
	Cəmi		**100**

	Aralıq imtahanı. 10-cu həftədə keçirilməsi nəzərdə tutlan aralıq imtahanı 30 balla qiymətləndirilir və aralıq imtahanına qədər keçilmiş mövzuları əhatə edir. ***Quiz*** semestr ərzində keçilmiş mövzular üzrə açıq və qapalı formalı suallardan ibarət test formasında keçiriləcək. **Paktiki tapşırıqlar** semestr ərzində keçilmiş mövzular üzrə aparılacaq, multimediada mətn, şəkil, video, audio, animasiya mövzularını əhatə edəcək. ***Final imtahanı*** 35 balla qiymətləndirilir və aralıq imtahandan sonra keçilmiş mövzuları əhatə edir.
Qaydalar	• **Dərsə hazırlaşma** Kursun stukturu onu fərdi öyrənməyə imkan verir və sinifdən kənar dərsə hazırlıq üçün olduqca mühümdür. Mühazirə materialı mətndə müzakirə olunan əsas məsələlər üzərində qurulacaq. Dərsdən əvvəl seçilmiş fəsillərin oxunuşu və onlarla tanışlıq mühazirənin başa düşülməsində sizə böyük köməyi dəyəcəkdir. Mühazirədən sonra siz apardığınız qeydləri öyrənməli və hər fəsilin axırında verilən uyğun məsələlər və yoxlama sualları üzərində çalışmalısınız. Semestr ərzində bir neçə dəfə yoxlamalar olacaqdır. Bu yoxlamalar dərs periodu ərzində keçiriləcəkdir. • **İmtahanda iştirak qaydası** Əgər siz yekun imtahanda üzürlü səbəbdən iştirak edə bilməmisinizsə, onda siz imtahanı növbəti müddətdə verməlisiniz. Əgər imtahanda iştirak etməmək üçün əlinizdə tutarlı əsas olmasa, onda imtahanın nəticəsi sıfır kimi qiymətləndiriləcəkdir • **İmtahan (keçmə / kəsilmə)** Tələbənin imtahanda uğur qazanması üçün onun göstəricisi ən aşağısı 60 % olmalıdır. Onun imtahanda müvəffəqiyyət qazanmadığı halda növbəti semestr və ya ildə onun kursu təkrar keçməsinə ehtiyac qalır. • **Aldadıcı / xoşagəlməz hərəkətlər** Yoxlama tapşırığı, Aralıq semestr imtahanı və Yekun imtahan ərzində aldadıcı və ya digər xoşagəlməz hərəkətlər tələbənin imtahandan kənarlaşdırılmasına gətirib çıxarır. Bu halda heç bir şeyə baxmayaraq avtomatik olaraq tələbə sıfır (0) alır. • **Professionalizmə doğru** Dərs saatı ərzində tələbə akademik yaradıcı və professional mühitə aparan yolla hərəkət etməlidir. Yolverilməz diskussiyalar və qeyri etik hərəkətlər birbaşa qadağan olunur. • **Kursun uğurlu alınması** Kursun uğurla başa çatmasından ötrü, tələbələr dərs saatı ərzində aktiv iştirak etməli və diskussiyalara cəlb olunmalıdır. • **Öyrənmə və Öyrətmə üsulları** Kursun aktiv öyrənilməsi prosesinə üstünlük verilir. Mühazirələr, diskussiyalar, çalışmalar, tipik nümunələr. • **Etik qaydalar.** Tələbələr dərsə gec gəlməməlidirlər. Dərs zamanı bütün elektron cihazlar söndürülməlidir.

DƏRS CƏDVƏLİ

Həftə	Tarix (planlaşdırılmış)	Mövzu	Dərslik/Tapşırıqlar
1		**Multimedia Sistemləri** Multimedia nədir?	Prezentasiya

		Multimedia dünən və bu gun Multimedia Proqram Alətləri Multimedia gələcəkdə	
2		**Multimedia Dizayn** Multimedia Dizayn elementləri Multimedia Dizayn prinsipləri	Prezentasiya
3		**Multimediada Mətn**	Prezentasiya
4		**Multimediada Şəkil**	Prezentasiya
5		**Multimediada Şəkil** **Multimediada Video**	Prezentasiya
6		Qeyri-iş günü	
7		**Multimediada Video**	Prezentasiya
8		**Multimediada Audio** Rəqəmsal audio Multimedia Sistem Səsləri Audio Fayl Formatları Audionun Multimedia Layihəsinə əlavə edilməsi	Prezentasiya
9		**Multimediada Animasiya** Animasiya prinsipləri Animasiya üsulları Animasiyaların yaradılması	Prezentasiya
10		**Aralıq imtahanı**	
11		**Multimediada informasiyanın sıxılması**	Prezentasiya
12		**Multimedia layihələlərinin yaradılması** Multimedia tətbiqlərin yaradılması Multimedia prezentasiyaların yaradılması	Prezentasiya
13		**Python və Multimedia**	Prezentasiya
14		**Python və Multimedia**	Prezentasiya
15		**İnternet və Multimedia** İnternetdə multimedia **WEB dizaynda multimedia**	Prezentasiya
16		**Final imtahanı**	

Bu tədris proqramı fənn haqqında tam məlumatı özündə əks etdirir və hər hansı dəyişiklik barədə öncədən xəbər veriləcək.